15 və 16 aprel 2013-cü il tarixlərdə Yaponiya hökumətinin “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı” çərçivəsində aşağıdakı açılış mərasimləri keçirilmişdi.

## 1. “Oğuzun Yaqublu kəndində tibb məntəqəsinin tikintisi” layihəsi

Layihənin əsas məqsədi Yaqublu kəndində yeni tibb məntəqəsi tikməklə həmin kəndin və ona qonşu olan digər üç kənd sakinlərinə göstəriləcək tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı 2030 nəfərdir. Sözügedən layihənin ümumi dəyəri **106,699 ABŞ dolları təşkil edir.**

Səfir Vatanabenin nitqi



Yeni tibb məntəqəsi



Oğuz rayonunda Aykido klubunun üzvlərinin çıxışı



Yaqublu Orta Məktəbinin şagirdləri



2. **<u>“Şəmkirin Ələsgərli  kəndində tibb məntəqəsinin tikintisi” layihəsi</u>**

Layihənin əsas məqsədi Ələsgərli kəndində yeni tibb məntəqəsi tikməklə həmin kəndin və ona qonşu olan digər üç kənd sakinlərinə göstəriləcək tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır. Layihədən faydalanacaq şəxslərin sayı 2035 nəfərdir. Sözügedən layihənin ümumi dəyəri **123,355 ABŞ dolları təşkil edir.**

Səfir Vatanabenin nitqi
Millət vəkili xanım Məlahət İbrahimqızı və İcra Hakimiyyətinin Başçısı cənab Nazim Veyisov mərasimdə iştirak etmişlər.



Yerli məktəb şagirdləri çiskin və soyuq hava şəraitinə baxmayaraq açılış mərasiminə toplaşıb. Onlar kəndlərində yeni avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsinin açılışına şaddırlar. Əvvəllər, bu kənddə müvafiq tibbi xidmətlərin verilməsində çətinlik yaşanırdı.



Stomatologiya otağı stomatoloji avadanlıqlarla təmin edilmişdir.



Tibb məntəqəsinin interyeri

